# "Heç vaxt kömək istəməyənlərə əl uzatmayın..."

## *Bernard Şounun həyatınızı dəyişə biləcək parlaq kəlamları*

**Məşhur irland dramaturqu, yazıçı, tənqidçi və ədəbiyyat üzrə Nobel mükafatı laureatı Bernard Şou uzun bir həyat yolu keçib.**

**Bernard Şou vegetarian idi. 70 yaşında ikən səhhəti barədə soruşduqda belə cavab verərdi: "Əlayam! Amma ət yemədiyim təqdirdə həkimlər tezliklə öləcəyimi iddia edirlər".**

**90 yaşında da o, eyni suala sevinclə eyni cür cavab vermişdi: "Əlayam! Amma həkimlər ət yemədiyim təqdirdə tezliklə öləcəyimi iddia edirlər".**

**Yazıçı 94 yaşına qədər yaşadı, ayıqlığını və güc-qüvvətini əsla itirmədi.**

**Uzunömürlülüyünün səbəbini soruşduqda o belə cavab verərdi: "Mən həyatı heç vaxt ciddi qəbul etməmişəm".**

**Bernard Şou diqqətəlayiq əsərləri ilə ədəbiyyatda və təfəkkürdə silinməz iz qoyub.**

**Yazıçının bacarıqlarından biri də mürəkkəb mövzuları yığcam və yaddaqalan ifadələrə çevirmək bacarığı idi.**

**Beləliklə, Bernard Şoudan ən müdrik kəlamları oxucuların diqqətinə çatdırırıq.**

**Problemlər sizi depressiyaya salmamalı, hərəkətə keçməyə məcbur etməlidir.**



**1.** Pul həyatda heç də vacib şərt deyil! Sadəcə, bu barədə danışmazdan əvvəl onu qazanmağa cəhd göstərin.

Bernard Şou pulun əhəmiyyətini vurğulayaraq, onun vacibliyini azaltmamağı bizə yumoristik şəkildə xatırladır.

**2.** Dünya işləmədən pula sahib olmaq istəyən avaralardan və varlanmadan işləməyə hazır olan axmaqlardan ibarətdir.

**3.** Optimistlərin arzuları gerçəkləşir. Pessimistlər isə kabus görürlər.

Bu sözlər müsbət və mənfi baxışlar arasındakı ziddiyyəti əks etdirir. Optimist insanlar arzularının və məqsədlərinin gerçəkləşdiyini görür, pessimistlər isə mənfi nəticələr və ya problemlərlə üzləşirlər.

**4.** Azadlıq məsuliyyət deməkdir. Ona görə də əksər kişilər bundan qorxurlar.

**5.** Danışmağı öyrənmək böyümək, susmağı öyrənmək isə müdrik olmaq deməkdir.

Burada biz növbəti dəfə kiminsə incitdiyimiz və ya xoşagəlməz sözlər söylədiyimiz anda susmağın, kiminsə diqqətlə dinləməyin, başqasının sirrini saxlamağın, dedi-qoduları təkrarlamamağın, "dilini dişləməyin" nə qədər vacib olduğu barədə müdrik sözlərlə qarşılaşırıq. Danışmağa tələsməyin!

**6.** Vətənpərvərlik mahiyyət etibarilə müəyyən bir ölkənin dünyanın ən yaxşısı olduğuna inanmaqdır, çünki siz orada doğulmusunuz.

Bununla B.Şou bütün xalqların müxtəlifliyi və dəyərlərinə daha geniş baxışı təşviq etməklə kor vətənpərvərliyə meydan oxuyur.

**7.** İnsanların müdrikliyi onların təcrübəsi ilə deyil, onu əldə etmək bacarığı ilə ölçülür.

**8.** İnsanların 2%-i düşünür, 3%-i düşündüyünü düşünür, 95%-i isə düşünməkdənsə ölməyi üstün tutur.

Bernard Şounun bu sözlərində düşünməyi bacaran, tənqidi qəbul edən, sözlərini və hərəkətlərini təhlil etməyə hazır olan insanların nadirliyi ilə bağlı tənqidi şərh var.

**9.** Gülməli olmaqdan qorxsanız, konki sürməyi öyrənməyəcəksiniz. Həyatın buzları sürüşkəndir.

**10.** Problemlər sizi depressiyaya salmamalı, hərəkətə keçməyə məcbur etməlidir.

Bununla B.Şou problemlərin emosional stress və hərəkətsizliyə səbəb olmaqdansa, hərəkətə və problemlərin həllinə sövq etməli olduğunu vurğulayır.

**11.** Ən əsası ruhunuzda hər şeyi qaydasına salmaqdır. Biz üç "yox"a riayət edirik: şikayət etmirik, günahlandırmırıq, bəhanə gətirmirik.

Şikayət etmək, günahlandırmaq və özünə haqq qazandırmaq kimi mənfi davranışlardan çəkinmək bacarığı ruhda rahatlıq və harmoniyaya səbəb olacaq, daxili rahatlıq və minnətdarlıq doğuracaq.

**12.** Sən necə də ticarətçisən, dostum. Amma unutma: pulla alına biləcək hər şey artıq ucuzdur!

**13.** Kütləni tərk etmək heç vaxt gec deyil. Xəyalınızın arxasınca gedərək hədəfinizə doğru irəliləyin.

Bernard Şou hər bir insanın dahiliyinə, onun gözəl, dəyərli və zəruri bir şey yaratmaq bacarığına inanırdı. İnsanın kütləni və rahatlıq zonasını tərk etmək qabiliyyəti ona bu dünyada özünü göstərməyə, fərdiliyini və dünyaya fərqli baxışını nümayiş etdirməyə imkan verir. Burada insanlar cəsarətli olmağa, istək və arzularına əməl etməyə təşviq edilir.

**14.** Pislərin ən böyüyü və günahların ən pisi yoxsulluqdur. Bütün digər mülahizələri qurban verməli olduğumuz birinci vəzifəmiz kasıb olmamaqdır.

**15.** Dürüstlük və sədaqət ucuz insanlardan gözləməməli olduğunuz bahalı hədiyyədir.

Bu fikirlərdə hər hansı bir insanın ən vacib iki xüsusiyyətinin - dürüstlüyünün və sədaqətinin dəyəri vurğulanır.

**16.** Sizdən bunu istəməyənlərə kömək etməyə tələsməyin. Bunu istəməyənlərə məsləhət verməyin. Özünüzə, sözünüzə, fikrinizə dəyər verin...

**17.** Ağıllı insan dünyaya uyğunlaşır; ağılsız isə israrla dünyanı özünə uyğunlaşdırmağa çalışır. Bax, buna görə də dirçəliş ağılsız insanlardan asılıdır.

Əslində, Corc Bernard Şounun müşahidələrində insan davranışı, münasibətləri, şəxsi inkişaf və xoşbəxtlik axtarışı haqqında bir sıra fikirlər toplu halında birləşib. Yazıçının hazırcavab və düşündürücü sitatları bizi qorxularımızı, istəklərimizi və ətrafımızdakı dünya ilə necə qarşılıqlı əlaqədə olduğumuzu araşdırmağa təşviq edir. Xəbərdar və cəsarətli olun! Parlaq və xoşbəxt bir həyat yaşayın!

*Toplayanı və tərcümə edəni:*
***Ağaddin BABAYEV***

